# Animation in Azerbaijan 2023



# Animation in Azerbaijan 2023

Baku - 2023

Kataloqu 2023-cü ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyilə Azərbaycan Animasiya Assosiasiyası hazırlayıb.

Ministry of Culture
of the Republic of Azerbaijan

anima
Azerbaijan Animation Association

This catalogue was prepared by the Azerbaijan Animation Association with support of the Ministry of Culture of Azerbaijan in 2023.

# Mündəricat Index


| | | |
|---|---|---|
| **Layihələr** | | **Projects** |
| Tammetrajlı filmlər | 6 | Feature Films |
| Qısametrajlı filmlər | 8 | Short Films |
| Seriallar | 22 | Series |
| **Yayımlanmış filmlər** | | **Released Films** |
| Qısametrajlı filmlər | 24 | Short Films |
| Tələbə filmləri | 27 | Student Films |
| Seriallar | 38 | Series |
| Sifarişli filmlər | 39 | Commissioned Films |
| **Festivallar** | 45 | **Festivals** |
| **Azərbaycan Animasiya Assosiasiyasının üzvləri** | 46 | **Members of the Azerbaijan Animation Association** |
| **Azərbaycan Respublikasının Kino Agentliyi** | 47 | **Cinema Agency of the Republic of Azerbaijan** |

# Azərbaycan Animasiya Assosiasiyası

# Animation Association of Azerbaijan

"Azərbaycan Animasiya Assosiasiyası" ictimai birliyi 2022-ci il aprelin 19-da yaradılıb. Birliyin əsas məqsədi Azərbaycanda animasiya kinosunu inkişaf etdirməkdir. Assosiasiyanın əsas vəzifələri bunladır:

- Animasiya studiyalarını, peşəkarları və həvəskarları birləşdirərək onlara dəstək olmaq.
- ANİMAFİLM Beynəlxalq Animasiya Festivalını təşkil etmək.
- Animasiya üzrə təhsil proqramlarını reallaşdırmaq.
- Dövlət qurumlar və ictimai birliklərlə əməkdaşlıq etmək.
- Azərbaycanda və xaricdə milli animasiyanı təbliğ etmək.

Birliyə üzv olmaq istəyən animasiya studiyaları və peşəkarlar bu e-mail ünvanına yaza bilərlər: info@anima.az

On April 19, Azerbaijan Animation Association non-government organization was established. The main goal of the association is the development of animation cinema in Azerbaijan. The Association carries out the following tasks to achieve the goals:

- To connect and support animation studios, professionals and enthusiasts.
- To organize ANIMAFILM International Animation Festival.
- To implement animation education programs.
- To cooperate with state institutions and NGOs.
- To promote Azerbaijani national animation locally and abroad.

Animation studios and professionals who wish to become members of the association are requested to contact us via this e-mail: info@anima.az

anima

Azərbaycan Animasiya Assosiasiyası

www.anima.az

# Tammetrajlı filmlər

# Feature films




## Qarın Qulu

Kuryer işləyən nağıl qəhrəmanı Məlikməmməd Göyçək Fatmaya rəqibi Koyotdan əvvəl elçi göndərmək üçün divlərin kurasiyasındakı Badi-Kubə şəhərində illərdi itkin düşmüş atasını tapmalıdır.

## The Stomach Slave

Delivery driver Malikmammad must find his lost father to arrange a meeting between his parents and the strict family of his love, Goychak Fatma, before his rival Coyote beats him to it. The story unfolds in the town of Badi-Kuba, curated by the orcs.

*Rejissor / Director: Nihad J., Rəvan Muradov*
*Prodüser / Producer: Nazim Hüseynov*
*İstehsalçı şirkət / Production Company: "Salnaməfilm studiyası" MMC*
*Əlaqə / Contact: nihadjnihad@gmail.com*



## Sehrli xalça

Hadisə Şərqdə cərəyan edir. Müasir məktəbli Arzu və onun əkiz qardaşı Zaur orta əsrlərin əfsanəvi qəhrəmanı, sərgərdan filosof, məzəli və ərköyün Nəsrəddinlə tanış olurlar. Onları sehrli xalçaya sahib çıxmaq və şəhərdə hakimiyyəti ələ keçirmək istəyən yaramaz Dəmirxan təqib edir. Sərgüzəştlər uşaqlara özlərini anlamağa, bir-birlərinə dəstək olmaq və sevməyə kömək edir.

## Magic Carpet

The action takes place in the East. Arzu, a modern schoolgirl, and her twin brother Zaur find themselves in the Middle Ages, where they meet their legendary ancestor, the funny and mischievous Nasreddin, a wandering philosopher. They are pursued by the villain Damirkhan, who dreams of taking possession of the magic carpet and seizing power in the city. The adventures help the children understand themselves and find support and love in each other.

*Prodüser / Producer: Studio Metrafilms, Lakeside Animation Studio, Alove Animation Studio*
*Əlaqə / Contact: info@aloveanimationstudio.com*

# Qısametrajlı filmlər
# Short films



## Astronavt

Astronavt olmaq istəyən qızın valideynləri onun istəyinə qarşı çıxır və onu təcrid edirlər. Öz dünyasından ayrı düşən qiz getdikcə həyata olan bütün arzu və ümidlərini itirir. Bundan xəbər tutan dostu qıza məktublar göndərməyə çalışır.

## The Astronaut

A girl who wants to become an astronaut is opposed by her parents and ends up being imprisoned in a cage. She gets separated from her world and gradually loses all her dreams and hopes for life. Knowing about this, his friend tries to send letters to the girl.

*Rejissor / Director: Zəhraxanım Quluzadə*
*Əlaqə / Contact: zahra.quluzade68@gmail.com*



# Dar vaxtda

Bu, Stalin repressiyaları zamanı və ondan sonrakı dövrlərdə yaşayan sadə insanların hekayəsidir. Film keçmişin təkcə sürgün edilənlərin taleyinə deyil, həm də onların ailələrinin və ümumilikdə cəmiyyətin həyatına necə təsir etdiyini araşdırır.

# Hard Times

This is the story of ordinary people during and after Stalin's repressions. The film explores how the events of the past affected not only the destiny of the exiled, but also the lives of their families and society overall.

*Prodüser / Producer: Şahin Əliyev*
*Ssenari müəllifi / Screenwriter: İsmayıl İman*
*Rejissor / Director: Rəşid Ağamalıyev*
*İstehsalçı şirkət / Production Company: "Dynamic Box" MMC*
*Əlaqə / Contact: sahin.aliyev@dynamicbox.net*



## Dəhşətli həqiqət

Gecə vaxtı kiçik uşaqlı cütlük uşaqsız ər-arvadla birgə meşədə tək qalanda, istər-istəməz qəribə bir malikanənin müəmmalı və sirli sahibəsinin köməyini qəbul etməli olurlar. Bu taleyüklü gecə qaranlıq bir sirri, dəhşətli bir həqiqəti aşkara çıxaracaq.

## Horrific Truth

When a couple with a young child becomes stranded in the forest at night alongside a childless couple, they must reluctantly accept assistance from a mysterious woman, the enigmatic owner of a peculiar mansion. This fateful night will unveil a dark secret, a horrifying truth.

*Rejissor / Director: Nərmin Quliyeva*
*Əlaqə / Contact: nara.shahqizi@gmail.com*



## Əziz dinləyicilər

Qadınlara qarşı psixoloji və fiziki zorakılığa cəmiyyətin laqeyd münasibətini əks etdirən qatarda, parkda və yolda qızın simvolik "musiqiçilər"lə qarşılaşması qara yumorla əks olunaraq, tamaşaçıların cəmiyyətin dəyişikliklərdəki rolunu şübhə altına alır.

## Dear listeners

A girl's encounters with symbolic 'musicians' on a train, in a park, and on a road reflect society's indifference to psychological and physical violence against women, portrayed with dark humor, prompting viewers to question their role in societal change.

*Rejissor / Director: Aygün Baxşıyeva*
*Əlaqə / Contact: aygun.baxshiyeva.2000@gmail.com*



## İnanna

İnanna adlı gənc qız kəndini tilsimə salan, nənəsi də daxil olmaqla insanları ağaca çevirən mistik daş kəllə tapır. Kəllədə müstəmləkəçilərlə əlaqəsi olan əcdadının ruhunun olduğunu öyrənən İnanna onu azad etmək və tilsimi qırmaq üçün axtarışa başlayır. O, əcdadının heykəlini düzəldərək bir ritual həyata keçirir və əcdadının ruhunu azad edir. Tilsimi sınan əcdad İnannaya qanad və yeni güc bəxş edir. O təzədən insana çevrilən nənəsi ilə qovuşaraq, dünyaya qayıdan, ona şəfa və tarazlıq gətirən ruhların şahidi olurlar.

## Inanna

Inanna, a young girl, discovers a mystical stone head, which curses her village, turning people into trees, including her grandmother. Learning the stone contains her ancestor's soul, bound by colonizers, Inanna embarks on a quest to free her and break the curse. She performs a ritual, reassembling the ancestral statue, which liberates her ancestor's soul, lifts the curse, and endows Inanna with wings and new powers. Reuniting with her now-human grandmother, they witness spirits, representing the healing and balance restored to their world.

*Rejissor / Director: Rüstəm Başirov*
*Əlaqə / Contact: rustambasheerov@gmail.com*



## Kapitan və Xəzər dənizi

1990-cı il yanvarın 19-undən 20-sinə keçən gecə Azərbaycanın mülki gəmilərinin cəsur kapitanları Xəzər dənizinin geniş sularında qeyri-adi və qeyri-bərabər döyüşə girərək sovet donanmasına meydan oxuyurlar.

## The Captain and the Caspian Sea

On the night of January 20, 1990, the courageous captains of Azerbaijani civil ships defy the Soviet navy, engaging in an extraordinary and unequal battle on the expansive canvas of the Caspian Sea.

*Rejissor / Director: Türkan Hüseyn*
*Prodüser / Producer: Türkan Hüseyn, Emil Nəcəfov*
*İstehsalçı şirkət / Production Company: "Chinar film" MMC*
*Əlaqə / Contact: turkan.hs@gmail.com*



## Qeyri-adi qorxu

Qeyri-adi qorxu vaqinizm sindromu haqqında qısametrajlı animasiya filmidir. Xəstəlik qadının cinsiyyət orqanına nəsə düşdükdə onun əzələlərinin spazması ilə bağlıdır. Rejissor bu problemlə ona görə məşğul olmaq qərarına gəlib ki, qızları tək qoymasın və bu xəstəliyin öhdəsindən mütləq gələ biləcəklərinə onları inandırsın.

## Unusual Fear

Unusual Fear is a short animated film about vaginismus - a health condition when the muscles of a woman's vagina spasm when something enters it. The director decided to address this problem because she wants to show girls that they are not alone and that they will definitely overcome this.

*Rejissor / Director: Nəzrin Ağamalıyeva*
*Prodüser / Producer: Rəşid Ağamalıyev*
*Ssenari müəllifi / Screenwriter: İsmayıl İman, Nəzrin Ağamalıyeva*
*İstehsalçı şirkət / Production Company: "PERİ FİLM" MMC (Animafilm Studio)*
*Əlaqə / Contact: rashid.aghamali@gmail.com*



## Narqız

İşğaldan azad olunmuş Qarabağ torpağında həyat yenidən çanlanır. Balaca Narqız göyə çərpələng uçurur və dünyada hər şeyi unudaraq onun dalınca qaçır. Sevinc içərisində olan qız torpaq altında olan və öz saatını gözləyən təhlükənin fərqində deyil. Bu minadır.

## Nargis

Life is starting again in Karabakh, which has been freed. Little Narqiz is flying a kite, running after it and forgetting everything else. She is happy but doesn't know about the danger hidden under the ground. It's a landmine.

*Rejissor / Director: Məsud Pənahi*
*Prodüser / Producer: Rəşid Ağamalıyev*
*Ssenari müəllifi / Screenwriter: Məsud Pənahi, İsmayıl İman*
*İstehsalçı şirkət / Production Company: "PERİ FİLM" MMC (Animafilm Studio)*
*Əlaqə / Contact: rashid.aghamali@gmail.com*



## Saprim

Hekayə baş qəhrəman İoldanın nöqteyi-nəzərindən izlənir. Görünüşünü tamamilə dəyişə bilən saprimlərdən biri olan cavan İolda adi insanlara şübhə ilə yanaşır və müəllimi Akalanın gizli tədqiqat zamanı faciəvi ölümündən sonra həqiqəti tapmaq üçün hərəkətə keçir.

## Saprim

The story is followed from the main character Iolda's POV. Saprims are people who can completely change their appearance. A new saprim young Iolda is suspicious of ordinary people who help the saprims. The death of her mentor  Akala, during her own secret research drives Iolda into action.

*Rejissor / Director: Nərmin Quliyeva*
*Əlaqə / Contact: nara.shahqizi@gmail.com*



## Səma qızı

Züleyxa Seyidməmmədova İkinci Dünya Müharibəsində döyüşən ilk azərbaycanlı qadın pilot olub. Bu film onun cəsarəti, bacarığı, aviasiya sahəsinə hədsiz marağı və bütün çətinliklərə baxmayaraq pilot olmaq arzusunun arxasınca getməsi haqqındadır.

## Daughter of the Sky

Zuleykha Seyidmammadova was the first Azerbaijani female pilot to take to the skies during World War II. The film portrays her bravery, skill, and unwavering commitment as she pursued her aviation passion, overcoming challenges and adversities.

*Rejissor / Director: Mehriban Əliyeva*
*Əlaqə / Contact: mebrialiyeva@gmail.com*



# Sonuncu lələk

Yox olmaq təhlükəsi qarşısında sönməz həyat eşqi olan yaraşıqlı qara turac ciddi təhlükə ilə üzləşir və o, acgöz ovçuların güllələrindən qəhrəmancasına qaçıb qurtararaq xəyalındakı sevgilisinə qovuşmaq istəyir... və ya heç olmasa, o, belə düşünür.

# The Last Feather

At the brink of extinction, driven by his unquenchable enthusiasm, a handsome black francolin runs into grave danger and will have to heroically outrun the bullets of greedy hunters to meet the bird of his dreams… or at least he thinks so.

*Rejissor / Director: Firəngiz Bağırova*
*Prodüser / Producer: Leyli Salayeva, Rəşid Ağamalıyev*
*Əlaqə / Contact: firangiz.email@gmail.com, lsalayeva@yahoo.com , rashid.aghamali@gmail.com*



## Uyuq

Kənddə hərəkətsiz həyatdan bezmiş uyuq qoruduğu bağ-bağçanı tərk edib öz bəxtini şəhərdə sınamağa gedir.

## Scarecrow

Tired of life that doesn't change in the village, the scarecrow leaves his garden to try his luck in the city.

*Filmin rejissoru: Mənzər Hüseynova*
*Əlaqə / Contact: menzer.huseyn@mail.ru*



## Üzük

Evli qız oxumağını davam etdirmək istəyir, amma indi onun həyatı ərə getdiyi vaxtdan əvvəl və sonrakı hissələrə bölünüb.

## Ring

The married girl wants to continue studying, but now her life is divided into before and after.

*Rejissor / Director: Leyla Novruzova*
*Əlaqə / Contact: leynovru@gmail.com*



## Yaşıl

Yaşamağa marağını itirmiş xəstə, varlı bir adamın hekayəsi. Onun həyat eşqi az qala sönərkən, qeyri-adi bir otaq yoldaşı peyda olur. Bu otaq yoldaşı bitkidir.

## Green

A story of a rich, sick man, who has lost all interest in life. Just when it seemed like his world lost all color, he gets an unusual roommate. The new roommate is a plant.

*Rejissor / Director: Aydan Alimzadə*
*Əlaqə / Contact: aydanalimzade313@gmail.com*

# Televiziya serialları

# TV Series



## Atalanta

Sehrli Atalanta diyarının dörd gənc mühafizəçisi - Mida, Dafa, Pene və Vyana gözmuncuğu mərasimi zamanı valideynlərini və yaxınlarını itirirlər. Yaramaz Noruas onları daşa döndərir. Hücumdan sağ çıxan mühafizəçilər öz yaxınlarını geri qaytarmaq, onların unikallığının sirrini öyrənmək və əsl dost olmaq üçün təhlükəli səyahətə çıxmaq qərarına gəlirlər.

## Atalanta

Four young guardians of the magical land of Atalanta - Mida, Dafa, Pene and Vienna - lose their parents and loved ones during an amulet ceremony. The villain Noruas turns them into stone statues. Surviving the attack, the guardians decide to embark on a perilous journey to retrieve their loved ones, discover their uniqueness, and become true friends.

*Prodüser / Producer: Aytac Mikayılova*
*Əlaqə / Contact: mikailova.ya@gmail.com*



## İsi və Tutu

Hər şeylə maraqlanan İsi adlı uşaq və onun Tutu adlı danışan tutuquşusu qatarla Tbilisiyə maraqlı səyahətə çıxır. Onları bu səyahətdə yeni-yeni bilgilər və təzə dostlar gözləyir. Onların sərgüzəştləri araşdırma, dostluq və yenilikləri öyrənmək həvəsi barədə dəyərli bilik verir.

## Isi and Tutu

A curious child named Isi and his talkative parrot Tutu begin an exciting train journey to Tbilisi, filled with discoveries and new friendships. Their adventures teach valuable lessons about friendship, exploration, and the joy of discovery…

*Prodüser / Producer: Rəşid Ağamalıyev*
*İstehsalçı şirkət / Production Company: "PERİ FİLM" MMC (Animafilm Studio)*
*Əlaqə / Contact: rashid.aghamali@gmail.com*

# Qısametrajlı filmlər

# Short films



## Baharın oğurlanması

Gül-çiçəkli Bahar qızı div tərəfindən oğurlanır. Bunu görən Balaca Qəhrəman Baharı xilas etmək istəyir. Balaca Qəhrəmanla Bahar birləşib divin qəsrindən qaçırlar. Bundan sonra Bahar hər tərəfi gül-çiçəyə qərq edir.

## Stolen Spring

The flowery girl Bahar is kidnapped by an ogre. Having witnessed the scene, the Little Hero wants to rescue Bahar. The Little Hero and Bahar come together and escape the ogre's castle. Bahar spills flowers all around afterward.

*Rejissor / Director: Aleksandra Şirinova*
*İstehsalçı şirkət / Production Company: Azanfilm*



## Hədis

“Hədis” qısametrajlı animasiya filmi 2022-ci ilin sentyabrın 21-ində İranda etiraz aksiyaları zamanı təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilmiş 22 yaşlı Azərbaycan Türkü Hədis Nəcəfiyə həsr olunub, İranda gender, etnik və mədəni ayrıseçkiliklə mübarizə aparanlara ithaf olunub.

## Hadis

The animated short film Hadis is dedicated to the memory of 22-year-old Azerbaijani Turk Hadis Najafi and to all fighting against gender, ethnic, and cultural discrimination in Iran. Najafi was murdered by Iranian security forces on September 21, 2022, and is now revered as a symbol of Azerbaijani resistance and ethnic struggle in Iran.

*Rejissor / Director: Nəzrin Ağamalıyeva*
*Prodüser / Producer: Rəşid Ağamalıyev*
*Ssenari müəllifi / Screenwriter: Nəzrin Ağamalıyeva, İsmayıl İman*
*İstehsalçı şirkət / Production Company: “PERİ FİLM” MMC (Animafilm Studio)*
*Əlaqə / Contact: rashid.aghamali@gmail.com*



## Qarabağ nağılı

Film Qarabağın qayıdışına həsr olunub! Uşaq yataqda uzanıb atasının ona nağıl danışmasını gözləyir. Ata televizorun qarşısında oturub diqqətlə ekrana baxır. Ekranda hərbi əməliyyatlar gedir və qələbə elan olunur! Ata oğluna məmnuniyyətlə nağıl kimi olan qələbə haqqında danışır.

## Karabakh Tale

The film is dedicated to the return of Karabakh! The kid is lying in bed, waiting for his father to tell him a tale. The father sits in front of the TV, where military operations are being shown, and victory is declared! The father tells the kid about the victory. He happily narrates the tale of the victory to the kid.

*Rejissor / Director: Firəngiz Qurbanova*
*İstehsalçı şirkət / Production Company: Birlik Film Studio*

# Tələbə filmləri
# Student Films



## Boş yerlər

İnsanabənzər məxluq səs-küyün qarşısını almaq üçün bədənindəki boş yerləri əlinə gələn hər şeylə doldurmaqdadır. Bir çox cəhdlərdən sonra, nəhayət, yekun nəticədə özünün ilkin çatışmayan parçalarını aşkar edir.

## Empty Spaces

A humanoid creature keeps filling the empty spaces in its body with anything it can find to keep the noise away. After a series of events, it finally discovers the initially missing parts of itself, leading to an open-ended conclusion.

*Rejissor / Director: Ayan Novruzlu*




## Əsl Toon Blüz

Canlı çəkilişlər üzərində 2D animasiya ilə yaradılmış bu hibrid film televiziya ekranı ilə uşaq arasındakı əlaqəni yaxından araşdırır.

## The Real Toon Blues

Created using live-action footage with 2D frame-by-frame animation composited on top, this hybrid film is a close examination of the relationship between the television screen and the child.

*Rejissor / Director: Sara Xəlilova*
*Əlaqə / Contact: sara.khalil.bayley@gmail.com*



## Fokus-pokus

Uşaq anası ilə oturub hərəkət edən qatarın pəncərəsindən bayıra baxır. Onların qarşısında bir sərnişin oturub. Onun fokuslarla uşağı əyləndirməyə başlayan bir fokusçu olduğu ortaya çıxır. Birdən uşaq da öz fokusunu göstərir.

## Hocus-Pokus

A little boy sits with his mother and looks out of the window of a moving train. A passenger sits in front of them, who turns out to be a magician and starts entertaining the child with his tricks. Suddenly, the kid shows his own trick.

*Rejissor / Director: Leyla Novruzova*



## Xəyalpərəst

Tənha kitab qurdu Jess, onu müxtəlif uydurma dünyalara aparan sehrli kitab tapır. Onları gəzdikcə dünyalar dəyişir və onun hərəkətlərinə uyğunlaşır. Lakin o, səyahət süratini artırarkən nə isə düz alınmır və işlər korlanır.

## The Dreamer

Jess, a lonely bookworm, discovers a magical book that transports her to various fictional worlds. As she explores them, the worlds shift and adapt to her every move. However, when she travels too quickly, something goes awry, and a glitch occurs.

*Rejissor / Director: Mehriban Əliyeva*
*Əlaqə / Contact: mebrialiyeva@gmail.com*



## Kitabın səsi

Qəsəbədə yaşayan bir qızın evinin yanına kosmosdan bir kitab düşür. Kitab onu insanlar arasında vasitəçi seçərək, birlikdə məktəb açır və qız səsi ilə özünü insanlara təqdim edir.

## The Voice of the Book

A book falling from space lands near the house of a girl who lives in the town. Selecting her as a mediator between people, it collaborates to establish a school and introduces itself to the people using the girl's voice.

*Rejissor / Director: İbrahim Baxşıyev*



## Mavi

Ay evdə olanda nə edir?

## Mavi

What does the moon do when she is at home?

*Rejissor / Director: Aylin Ələkbərli*



## Nataraz

Başı kiçik olan adamın ətraf mühitlə tarazlığı pozulur. Bəziləri ilə dost olsa da, onlara qarşı da yanlışlıq edə bilər. Məsələn, dostu (quş) ilə yaxşı anlaşır, amma dələ ilə yox.

## Disbalance

A man with a small head has a disbalance with the environment around him. Even though he is friendly to some, he may make mistakes against others. For example, he gets along well with his friend (a bird) but not with a squirrel.

*Rejissor / Director: Amin Quliyev*



## Sirli meşə

Gənc qadın meşədə maşın sürür. O, qalın meşədə uçuşan çoxlu iri, gözəl kəpənəklər görür. Maşını saxlayır. düşüb şəkil çəkir... Şəkillərdə parlaq qırmızı qanadlar görünür.

## Mysterious Forest

A young woman drives a car into the forest. In the dense woods, she notices with interest numerous large and beautiful butterflies flying around. She stops the car, gets out, and takes photos. In the pictures, we see butterflies with bright red wings.

*Rejissor / Director: Əsli Yunusova*



## Təhsil haqqı

Bizə hər bir kəsin təhsil almaq haqqına malik olduğunu xatırladan və qızların təhsili haqqında məlumatlılığı artıran emosional animasiya filmi.

## Right to Education

An emotional animation that reminds us that the right to education is universal and raises awareness about girls' education.

*Rejissor / Director: Ruslan İbrahimli*



# Tələ

Oğlan xəyallar və reallıq arasındakı sərhədə daxil olur.

# The Trap

A boy enters a borderland between dreams and reality.

*Rejissor / Director: Ayla Qasımova*



## Timid və ağacdələn

“Timid və ağacdələn” meşədəki rahat evində yaşayan rəssam siçan Timid haqqında səmimi qısametrajlı animasiya filmidir. Ağacdələnin onun evinə ziyan vuracağından qorxsa da, dimdiyi budağa ilişmiş bir ağacdələn görəndə Timidin həyatı dəyişir.

## Timid and the Woodpecker

“Timid and the Woodpecker” is a heartwarming short animated film about Timid, a small artist mouse living in a cozy forest home. Despite fearing the woodpecker damaging his house, Timid’s life changes when he discovers a woodpecker with its beak stuck in a branch.

*Rejissor / Director: Toğrul Məstəlizadə*

# Televiziya serialları

# Tv Series




## Cəhənnəmin isti bucağı

İllər əvvəl dünyanı qara qüvvələrdən xilas etmək cəhdləri uğursuzluğa düçar olmuş iki keçmiş agent ölən dostlarının cəhənnəmə düşdüyünü öyrənəndən sonra ora yola düşmək qərarına gəlirlər.

## Hell Around

Two former agents who failed to save the world from dark forces learn that their dead friends have gone to hell. They then go to hell to save them.

*Rejissor / Director: Rəvan Muradov*
*Prodüser / Producer: Rəvan Muradov, Elçin Hüseynov*
*Əlaqə / Contact: ravancramb@gmail.com*
*İstehsalçı şirkət / Production Company: Crambone MMC (Crambone Inventive League)*

# Sifarişli filmlər

# Commissioned films



## 6-cı ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının treyleri

Sehrli çiyələklərlə dolu möcüzəli bir meşədən melodik simli musiqi səsi gəlir. Ağ dovşanlar meşənin içi ilə qaçır, gənc Fitnə və Həvvanı meşənin dərinliklərinə çəkirlər. Füsunkar musiqi virtuoz tar ifaçısı olan orta yaşlı qadına məxsusdur. Lakin o, özü də gözləmirdi ki, onun musiqisi təkcə gənc qəhrəmanları deyil, həm də möhtəşəm hədiyyəsi ilə qalın meşəni lərzəyə gətirən qarı nənəni də cuşa gətirəcək.

## The Trailer of the 6th ANIMAFILM International Animation Festival

In a magical forest with enchanted strawberries a melodic string music is playing. White rabbits run through the forest and draw along young Eve and Fitne into the very heart of the forest. The enchanting music belongs to a middle-aged woman who is a virtuoso tar player. However, she did not expect that her music will attract not only young heroines, but also the grandma, who brought along her powerful gift to the heart of the forest.

*Rejissor / Director: Firəngiz Bağırova*
*İstehsalçı şirkət / Production Company: "PERİ FİLM" MMC (Animafilm Studio)*
*Əlaqə / Contact: rashid.aghamali@gmail.com*




## Xosrov və Şirin

Film Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasına çəkilmiş miniatür əsasında yaradılıb. Filmdə Xosrov və Şirinin görüşdüyü günlərdən biri əks olunub.

## Khosrov and Shirin

The film is created based on a miniature that draws inspiration from Nizami Ganjavi's poem, "Khosrow and Shirin." It portrays a day from the encounters between Khosrow and Shirin.

*Rejissor / Director: Vüsal Hüseynli*
*Prodüser / Producer: Pərviz Rəsulov (3D AnimaStudio)*
*Əlaqə / Contact: 3danimastudio@gmail.com*



## Mərhəmət qılıncı

Fantastika və dram janrından olan bu film orta əsrlərin bir şərq dövlətindən bəhs edir. Gənc padşah uşaqlıq qorxularının əsiridir. Öz qılıncı ilə insanları zülmkarlardan qurtaran şah sonda xalqına özü zülm edərək sonunu hazırlayır.

## The Sword of Mercy

The film, set in a medieval Eastern state, centers on a young king battling his childhood fears. Blending fantasy and drama, it shows him initially as a hero saving his people from tyranny, but eventually, he becomes a tyrant himself, leading to his downfall.

*Rejissor / Director: Vüsal Hüseynli*
*Prodüser / Producer: Pərviz Rəsulov (3D AnimaStudio)*
*Əlaqə / Contact: 3danimastudio@gmail.com*



# “The Half” - Birdən ölsək

Bu, The Half (Band) musiqi qrupunun “Birdən Ölsək” lirik mahnısı əsasında çəkilmiş musiqili animasiya filmidir.

# The Half - Birdən Ölsək

This is a musical animated film based on the lyrical song “Birdən Ölsək” by The Half (Band).

*Rejissor / Director: Rəvan Muradov*
*Əlaqə / Contact: ravancramb@gmail.com*




## Toplanın yeni evi var

Film heyvanlara qayğı və sevgidən bəhs edir. Filmdə bəzi uşaqların əziyyət verdiyi küçüyü əzab çəkməkdən qurtarıb evə gətirən ağıllı uşaqlardan söhbət gedir. Bu uşaqlar bizə heyvanlarla necə davranmaq lazım olduğunu öyrədirlər.

## Toplan has a New House

This film teaches us to care for and love animals. It tells the story of clever kids who rescue a little puppy that was being tormented by other children and bring it home. These children set an example for all others on the proper way to treat animals.

*Rejissor / Director: Seyla Əliyeva*
*Əlaqə / Contact: tvkookla@gmail.com*




## Uzun Həsən
## Ağqoyunlu dövlətinin hökmdarı

Film qısa müddətdə kiçik bəyliyi nəhəng imperiyaya çevirməyi bacaran Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənin həyat və fəaliyyətindən bəhs edir.

## Uzun Hasan,
## Ruler of Aghgoyunlu State

The film reflects the life and activities of Uzun Hasan, the ruler of the Aghgoyunlu state, who managed to transform a small principality into a giant empire in a short period of time.

*Rejissor / Director: Cavid Əhədov*

# Festivallar

# Festivals

**ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı**
ANIMAFILM International Animation Festival

*Director: Rəşid Ağamalıyev*
*Web: www.animafilm.az*
*E-mail: animafilm.biaf@gmail.com*

**Bakı Beynəlxalq Qısa Filmlər Festivalı**
Baku International Short Film Festival

*Director: Fehruz Şamıyev*
*Web: www.filmfestival.az*
*E-mail: office@filmfestival.az*

**DokuBaku Beynəlxalq Sənədli Film Festivalı**
DokuBaku International Documentary Film Festival

*Direktor: İmaməddin Həsənov*
*Web: www.dokubaku.az*
*E-mail: info@dokubaku.az*

**"Salam" Beynəlxalq Yeniyetmə Kino Festivalı**
The International Children's and Youth Film Festival "SALAM"

*Direktor: Nariman Məmmədov*
*Web: www.salamfest.az*
*E-mail: salamfest@narimanfilm.az*

**Sevil Beynəlxalq Qadın Sənədli Film Festivalı**
Sevil International Women's Documentary Film Festival

*Direktor: Aygün Rəşidova*
*Web: www.sevilfest.org*
*E-mail: sevilfest@gmail.com*

anima
Azərbaycan Animasiya Assosiasiyası

# Şirkətlər

# Companies

"Dynamic Box" MMC

"PERİ FİLM" MMC

Bizi www.anima.az ünvanında tapın

Find us at www.anima.az

# Fərdi şəxslər

# Individuals

Amin Quliyev
Elçin Hami Axundov
Elvira Əzizova
Firəngiz Bağırova
Leyli Salayeva
Mehriban Əliyeva
Məsud Pənahi
Nəzrin Ağamalıyeva
Oktai Iusibov
Rafiq Məmmədli
Rəşid Ağamalıyev
Ruslan İbrahimli
Sara Xəlilova
Sevinc Quliyeva
Seyla Əliyeva
Toğrul Məstəlizadə
Ülviyyə Məmmədova

# Azərbaycan Respublikasının Kino Agentliyi

# Cinema Agency of the Republic of Azerbaijan

Ölkədə kinematoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi və şəffaf idarəçilik mexanizmlərinin tətbiqi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında 2022-ci il 20 aprel tarixli 1667 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) adlı publik hüquqi şəxs yaradılmışdır.

On April 20, 2022, the President of the Republic of Azerbaijan issued Decree No. 1667, establishing the Cinema Agency of the Republic of Azerbaijan (ARKA) as a public legal entity under the Ministry of Culture. This establishment was further ratified by Decree No. 1880 on November 16, 2022.

Cinema Agency
of the Republic
of Azerbaijan

*Ünvan: Bakı, Ü.Hacıbəyli küç. 84, AZ1000*
*Tel: +994 12 565 0147*
*Web: www.arka.culture.az*
*E-mail: arka@culture.gov.az*

anima

Azerbaijan Animation Association